


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 34 (24.171)

22 fevral 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Naxçıvanda *“Heydər Əliyev və vətəndaş cəmiyyəti quruculuğu”* mövzusunda konfrans keçirilib




*Fevral ayının 21-də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar ölkənin aparıcı vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri Naxçıvan Muxtar Respublikasına gəliblər. Səfərdə həmkarlar ittifaqlarını, qeyri-hökumət təşkilatlarını, media qurumlarını, ağsaqqallar və veteranlar təşkilatlarını təmsil edən 250 nəfər qonaq iştirak edib.*

Qonaqlar Naxçıvan Beynəlxalq Hava Limanında qarşılandıqdan sonra Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Daha sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq başlayıb. Qonaqlara Ulu Öndərin zəngin həyat yolu və fəaliyyəti barədə geniş məlumat verilib.

Sonra Heydər Əliyev Sarayında “Heydər Əliyev və vətəndaş cəmiyyəti quruculuğu” mövzusunda konfrans keçirilib. Konfransda Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən əksər vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri, habelə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri iştirak ediblər.

Tədbirdə əvvəlcə müstəqil Azərbaycanın qurucusu və memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin və qardaş Türkiyədə baş vermiş zəlzələ nəticəsində həlak olanların əziz xatirələri bir dəqiqəlik sükutla yad olunub. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Konfransı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, çoxəsrlik tariximizin ən böyük nailiyyətləri məhz Heydər Əliyev siyasəti ilə bağlıdır. Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı əvəzedilməz xidmətləri onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Görkəmli dövlət xadimi Heydər Əliyevin həm SSRİ dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi dönəmdə həyata keçirdiyi tədbirlər respublikamızın qüdrətinin artmasına, Azərbaycanın tarixi nailiyyətlər qazanmasına xidmət etmişdir.

Azərbaycan Respublikası Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev çıxış edərək vətəndaş cəmiyyətinin təşəkkülündə və ölkənin əsas hərəkətverici qüvvələrindən birinə çevrilməsində Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərini vurğulayıb. Bildirib ki, məhz onun müəllifliyi və təşəbbüsü ilə 1995-ci ildə qəbul edilən yeni və müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmış, bununla da hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda Heydər Əliyev ideyalarının təməl prinsiplərindən olan vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza formalaşdırılmışdır. Konstitusiyanın qəbul edilməsi həm də ictimai birliklərin, qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hərtərəfli şərait yaratmışdır.




Konfransda Ümummilli Lider Heydər Əliyevin vətəndaş cəmiyyəti quruculuğu sahəsində həyata keçirdiyi genişmiqyaslı işlər barəsində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevin, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Auditorlar Palatasının sədri Vahid Novruzovun, 44 günlük Vətən müharibəsinin iştirakçısı, Xüsusi Təyinatlıların Qaziləri və Şəhid Ailələri İctimai Birliyinin sədri Bəhruz Məmmədzadənin, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyevanın, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyevin, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun, Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyətinin sədri Novella Cəfərovanın və Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əlimməmməd Nuriyevin çıxışları dinlənilib. Konfransdan sonra qonaqlar Naxçıvan şəhəri ilə də tanış olublar.

Vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olub, sahiyyə ocağının müalicəvi əhəmiyyəti barədə ətraflı məlumat alıblar.



Azərbaycan Respublikası Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri ***Vüsal Quliyev*** “Şərq qapısı” qəzetinə müsahibəsində deyib: – 2023-cü il, “Heydər Əliyev İli” çərçivəsində vətəndaş cəmiyyətinin ayrı-ayrı institutları tərəfindən müxtəlif tədbirlər həyata keçirilir. Belə bir təşəbbüs irəli sürüldü ki, bütün vətəndaş cəmiyyəti institutları, həmkarlar, qeyri-hökumət, veteran və ağsaqqallar təşkilatları, o cümlədən media qurumlarının Ulu Öndərin həyatının böyük hissəsini həsr etdiyi Naxçıvana birgə səfəri təşkil olunsun. Mən xüsusilə qeyd etmək istəyirəm ki, vətəndaş cəmiyyəti institutlarının buraya bu tərkibdə ilk səfəridir. Səfər çərçivəsində Ulu Öndərin çalışdığı, ömrünü inkişafı üçün həsr etdiyi Naxçıvan şəhəri ilə tanışlıq oldu, “Heydər Əliyev və vətəndaş cəmiyyəti quruculuğu” mövzusunda konfrans keçirildi.

Ümumilikdə, təqribən, 250 nəfər bu səfərdə iştirak etdi. Onu da qeyd edim ki, bu “Heydər Əliyev İli” ilə bağlı vətəndaş cəmiyyəti təşkilatlarının ilk tədbiridir, ilin sonunadək bu istiqamətdə silsilə tədbirlər keçiriləcək.



Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Auditorlar Palatasının sədri ***Vahid Novruzov*** konfransın əhəmiyyəti barədə fikirlərini bölüşərək dedi: – Bu gün Naxçıvanda “Heydər Əliyev və vətəndaş cəmiyyəti quruculuğu” mövzusunda





konfransın keçirilməsi, əslində, vaxtilə Ulu Öndərimizin belə bir bəyanatının reallaşmasının bariz nümunəsidir: “Biz Azərbaycanda demokratik dövlət və bazar iqtisadiyyatı qururuq”.Təbii ki, dünya təcrübəsi göstərir ki, demokratik dövlət qurmaq üçün mütləq vətəndaş cəmiyyəti institutları formalaşmalı, vətəndaş cəmiyyətləri geniş yayılmalı və onların səsləri eşidilməlidir. Bu baxımdan bugünkü konfrans ona görə böyük əhəmiyyət kəsb edir ki, ötən illər ərzində ölkəmizdə vətəndaş cəmiyyəti formalaşmış olsa da, təbii ki, regionlarda bu sahədə işi daha yüksək səviyyəyə qaldırmaq tələb olunur. Çıxışlardan da gördüyünüz kimi, Naxçıvan Muxtar Respublikasında da vətəndaş cəmiyyətinin daha geniş yayılması, inkişaf etməsi üçün ən qabaqcıl vətəndaş cəmiyyəti institutlarının təcrübələrinin öyrənilməsinə ehtiyac var, həm də ki bu sahədə yerli təşəbbüsün daha da geniş yayılması üçün tədbirlər görülməlidir. Bugünkü tədbirin əsas qayəsini, əhəmiyyətini bu baxımdan yüksək dəyərləndirirəm.



Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru ***Aygün Əliyeva*** müsahibəsində qeyd etdi ki, “Heydər Əliyev İli” çərçivəsində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi də silsilə tədbirlər həyata keçirəcək. Bu tədbir agentliyin ilk tədbiridir. Bildiyiniz kimi, bu gün 250 vətəndaş cəmiyyəti nümayəndəsi, ağsaqqallar, ziyalılar, QHT, gənclər təşkilatları səfərdə iştirak edir. Səfər çərçivəsində biz Ümummilli Liderin abidəsini, dahi şəxsiyyətin adını daşıyan muzeyi ziyarət etdik, “Heydər Əliyev və vətəndaş cəmiyyəti quruculuğu” mövzusunda konfrans oldu. Ulu Öndər Azərbaycanda demokratik islahatların banisidir, eyni zamanda vətəndaş cəmiyyəti quruculuğunda onun əvəzsiz xidmətləri vardır. Bu sahədə qanun və normativ sənədlərin qəbulu məhz Ümummilli Liderin adı ilə bağlıdır. Bu konfransın Naxçıvanda keçirilməsi təsadüfi deyil. Naxçıvan Azərbaycana və dünyaya Heydər Əliyevi bəxş edən qədim bir diyardır. Belə konfrans, simpoziumlar ilboyu Azərbaycanın digər regionlarında da həyata keçiriləcək, eyni zamanda Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi “Heydər Əliyev İli” çərçivəsində müsabiqə elanı da nəzərdə tutub.

✍ **Nail ƏSGƏROV**

✍ **Ceyhun MƏMMƏDOV**

## Vətəndaş qəbulu keçirilib



Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev və Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov Sədərək rayonunda vətəndaş qəbulu keçirib. Rayon İcra Hakimiyyətində təşkil olunan qəbulda 32 vətəndaşın rayonda suvarma və içməli su ilə bağlı yaranmış vəziyyət və yol infrastrukturunda mövcud olan çətinliklərlə bağlı müraciəti dinlənilib, mövcud problemlərin yaxın zamanlarda həll ediləcəyi bildirilib.

✍ **Ramiyyə ƏKBƏROVA**



*Münxen Təhlükəsizlik Konfransı ilk dəfə NATO ölkələrinin 60-a yaxın nümayəndəsinin iştirakı ilə 1963-cü ilin payızında "Ümumdünya Hərbi İşlər Konfransı" adı altında toplanmışdır. Öz kateqoriyasında dünyanın ən böyük müzakirə platforması olan konfransın iştirakçılarının sayı və nüfuzu getdikcə artmaqda, miqyası və coğrafiyası genişlənməkdədir. Bu il keçirilən platformaya 800-dən artıq şəxs dəvət olunmuşdu. Onların da 45-i dövlət və hökumət başçıları, 83-ü müdafiə və xarici işlər nazirləri, bir sıra beynəlxalq təşkilatların rəhbərləri, şirkət sahibləri, nüfuzlu politoloqlar və media nümayəndələri idi. Rusiya Ukrayna ilə ədalətsiz müharibə səbəbindən uzun illərdən sonra ilk dəfə builki konfransa dəvət almayıb.*

## *Münxen Təhlükəsizlik Konfransı* – Azərbaycanın beynəlxalq sferada yeni siyasi qələbəsi

Ən müxtəlif aktual qlobal məsələlərin müzakirə müstəvisinə çıxarıldığı platformada, şübhəsiz ki, builki konfransın əsas müzakirə mövzusu artıq bir ildir ki, davam edən Rusiya-Ukrayna müharibəsi oldu. Təsadüfi deyil ki, platformanın rəhbəri Kristof Heusgenin konfransda açılış çıxışından dərhal sonra Ukrayna prezidenti Volodimir Zelenskinin canlı videoyazı formatında müraciəti baş tutdu. Azərbaycan Prezidenti cənab İlham Əliyevin söylədiyi kimi, Rusiya-Ukrayna müharibəsində bu və ya digər formada iştirak edən ölkələrin sayına və coğrafiyasına nəzər salsaq, faktiki olaraq, qeyri-ənənəvi formada üçüncü dünya müharibəsinin getdiyinin şahidi oluruq. Belə bir şəraitdə bu müharibə iki dövlət arasındakı hərbi münaqişə yox, qlobal təhlükəsizliyi və beynəlxalq sülhü təhdid edən dünya müharibəsidir. Maraqlıdır ki, bu istiqamətdə əsas müzakirə mövzusu Ukraynaya yardım və Qərbin yeni dünya düzəninin qurulmasındakı rolu olsa da, bu perspektivin heç də indikindən daha az mürəkkəbliyə və qeyri-müəyyənliyə malik olmadığını, münaqişələrin və onların hərbi həll yollarının gələcəkdə də istisna edilmədiyini göstərir. Belə ki, konfransın gündəliyinə Rusiya-Ukrayna müharibəsinə və onun tərəflərinə münasibətdə NATO hərbi bloku daxilindəki fikir ayrılıqları, Rusiya əleyhinə vahid və effektiv blokun yaradılması, Avropa ölkələrinin müdafiə xərclərinin artırılması, Avropa İttifaqının Çinlə münasibətləri, enerji və iqlim məsələləri, texnologiyalar və kibertəhlükəsizlik mövzuları daxil idi. Yəni, əslində, bütün müzakirə mövzularının bu və ya digər dərəcədə bir-biri ilə əlaqəli olduğu danılmazdır.

Qeyd edək ki, 2020-ci ildə olduğu kimi, builki konfransda Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı və fəallığı milli diplomatiya tarixinə yenə də uğurlu hadisə kimi yazıldı. İlk növbədə, dövlət başçımızın keçirdiyi görüşlərin əhəmiyyətinə nəzər salaq. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşündə dövlət başçısı Azərbaycanın Brüssel sülh prosesini dəstəklədiyini bəyan edib, eləcə də Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında, sülh müqaviləsi üzrə danışıqlarda, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin olunmasında səylərinin davam etdirilməsi, həmçinin Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyəti müzakirə olunub.

Elə buradaca qeyd edək ki, Prezident İlham Əliyevin keçirdiyi görüşlər arasında ictimaiyyətə açıqlanan "ən xəsis" məlumat ATƏT-in Baş katibi xanım Helqa Maria Şmid ilə görüşü haqqındadır. Amma dövlətimizin başçısının mətbuata verdiyi müsahibədən, xüsusilə Ermənistan baş naziri ilə "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda keçirilən plenar iclasda səsləndirdiyi fikirlərdən başa düşmək olur ki, müzakirələr postmünaqişə dövrü proseslərində ATƏT-in iştirakı, o cümlədən bədnam Minsk qrupunun taleyi istiqamətində olub. Həmin paneldə ATƏT-in Baş katibi vurğuladı ki, bu təşkilatın regional əməkdaşlığı, ticarət əlaqələrini və bağlılığı təşviq etmək üçün mandatı var. Sərhədlər, itkin düşmüş şəxslər, həbs olunmuş insanlar, qarşılıqlı etimadın qurulması, həmçinin minalara bağlı həll edilməli olan açıq məsələlər var. Buna görə ATƏT əlində olan bütün vasitələrdən istifadə etməyi zəruri sayır. Başqa sözlə, aydındır ki, Minsk qrupunun mövcud olmadığını ATƏT özü də qəbul edir, lakin bölgədəki postmünaqişə dövründə hansısa şəkildə iştiraka da can atır.

Lakin maraqlıdır ki, xanım Şmidt münaqişənin həll olunduğu iki ildən artıq müddətdə ATƏT-in mandatının olduğunu iddia etdiyi məsələlərlə bağlı təmsil olunduğu təşkilatın "gördüyü" işlərdən də danışıbmı? Məsələn, postmünaqişə dövrünün ən başlıca humanitar məsələsi olan minaların basdırılması, özü də məhz münaqişə bitdikdən sonra ermənilərin cinayətkar minalama fəaliyyətləri ilə bağlı ATƏT-in hər hansı təsirli addımı, bəyanatı olubmu?

Əvəzində ölkəmiz Rusiya-Ukrayna müharibəsinin yaratdığı yeni geosiyasi reallıqlar şəraitində Avropa məkanı üçün, obrazlı şəkildə desək, əsl nəfəsliyə, ümid pəncərəsinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev fevralın 17-də "Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masada iştirakı zamanı ölkəmizin ötən il Azərbaycanın qaz təchizatını artırmasının qısamüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfədən danışıb, orta və uzunmüddətli perspektivdəki hədəfin Azərbaycanın təşəbbüscüsü olduğu Cənub Qaz Dəhlizinin genişləndirilməsi olduğunu bildirib. Ötən il iyulun 18-də Bakıda Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin iştirakı ilə Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu ilə enerji sahəsində Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının genişləndirilməsi qərara alınıb. Belə ki, 2027-ci ilədək TAP-la qaz nəqlinin indiki 11 milyard kubmetrdən 20 milyard kubmetrə, TANAP-la isə 16 milyard kubmetrdən 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulub. Bundan başqa, Azərbaycanla Avropa İttifaqı arasında bərpa olunan enerjinin xüsusi rolu vardır. Artıq 25 qiqavatadək enerji istehsalı ilə bağlı müxtəlif sənədlər, o cümlədən 2022-ci il dekabrın 17-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında dördtərəfli memorandum imzalanıb.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin keçirdiyi görüşlərin bir çoxu məhz enerji, xüsusilə "Yaşıl enerji" ilə bağlı məsələlərin müzakirəsi və həllinə yönəlik idi. Belə ki, Almaniyanın Şərqi Biznes Assosiasiyasının Baş icraçı direktoru Mixael Harms ilə görüşdə müxtəlif sahələrdə, xüsusən azad edilmiş torpaqlarda bərpa-quruculuq, nəqliyyat, logistika və bərpa olunan enerji sahələrində əməkdaşlıq üçün alman şirkətləri dövlətimizin başçısı tərəfindən Azərbaycana dəvət edildi. Azərbaycanın təşəbbüscüsü olduğu Cənub Qaz Dəhlizi layihəsinin icrası prosesində maliyyə tərəfdaşı kimi yaxından iştirak edən Avropa İnvestisiya Bankının (AİB) prezidenti Verner Hoyerlə görüşdə də rəqəmsal transformasiya, bərpa olunan enerji resurslarının inkişafı və ixracı, nəqliyyat bağlantılarının genişləndirilməsində AİB-in tərəfdaş kimi iştirakı müzakirə olunub. Xəzər dənizinin Azərbaycan sektorunda və quruda böyük bərpa olunan enerji potensialının reallaşdırılması istiqamətində artıq üç ölkə (Gürcüstan, Rumıniya və Macarıstan) ilə birlikdə Anlaşma Memorandumu və eləcə də beynəlxalq tərəfdaş şirkətlərlə 25 qiqavatadək bərpa olunan enerji istehsalı ilə bağlı müxtəlif sənədlər imzalanıb. Həmçinin Orta Dəhliz üzərində yerləşən ölkə olaraq Azərbaycanın nəqliyyat-logistika potensialının daha da artırılması və azad ticarət zonasının yaradılması istiqamətində də AİB-lə əməkdaşlıq imkanları böyükdür. AİB prezidentinin Azərbaycanla əməkdaşlıqda maraqlı olmasını və xüsusilə "Yaşıl enerji" konsepsiyasını yaxından dəstəklədiyini vurğulaması görüşün məhsuldar keçdiyini deməyə əsas verir. Bu istiqamətdə cari il fevralın 13-də Bakıda "Gülüstan" sarayında təməlqoyma mərasimi keçirilən, İtaliyanın "Ansaldo Energia" şirkətinin iştirakı ilə inşa ediləcək 1280 MVt gücündə istilik elektrik stansiyası həmin konsepsiyanın icrasında mühüm addımdır. Ümumiyyətlə, Avropa İttifaqı məkanında ən yaxın strateji tərəfdaşımız olan İtaliya şirkətlərinin yalnız enerji deyil, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərində yaxından iştirakı iki ölkə arasında çoxsahəli əməkdaşlığın uğurla inkişaf etdiyini göstərir. Bu baxımdan dövlət başçımızın İtaliyanın kosmik fəza, müdafiə və təhlükəsizlik sahələri üzrə ixtisaslaşan "Leonardo" şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilə görüşdə Azərbaycan Prezidenti müdafiə sənayesi sahəsində mövcud əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulanıb.

Azərbaycan Prezidentinin mətbuata müsahibəsində bildirdiyi kimi, enerji təhlükəsizliyi məsələlərinin ön sıralarda olduğu bütün beynəlxalq tədbirlərdə Azərbaycan yeni enerji mənbələrinə malik və Avropanın enerji təhlükəsizliyi üçün mühüm işlər görən ölkə kimi böyük ehtiramla qarşılanır və dövlət başçımıza bu fəaliyyətinə görə təşəkkür edilir. ***"Şübhəsiz ki, enerji diplomatiyamız nə qədər uğurlu olarsa, ölkəmizin maraqları bir o qədər də daha güclü şəkildə təmin ediləcək"***, – deyən Prezident cənab İlham Əliyev özünün müstəsna müəllifi olduğu Azərbaycan dövlətinin enerji siyasətini yalnız iqtisadi sahədə yox, həmçinin geostrateji sahədə və təhlükəsizlik kontekstində milli maraqların təmin edilməsinə uğurla yönəldib.

2008-ci ildən sonradan "Bakı prosesi" adlandırılan və dinlərarası dialoqu təşviq edən və BMT tərəfindən dəstəklənən platformanı beynəlxalq icmaya qazandırmış Azərbaycan artıq uzun müddətdir ki, bütün dünyada müxtəlif xalqların, ayrı-ayrı dinə etiqad edən icmaların dinc yanaşı yaşadığı multikultural və tolerant ölkə olaraq şöhrət qazanıb. Konfrans çərçivəsində Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmit ilə görüşdə yəhudi icmasının ölkəmizdə dostluq, mehribanlıq və qarşılıqlı anlaşma mühitində yaşadığını, dini ibadətlərini sərbəst yerinə yetirdiyini, sinaqoqların fəaliyyəti üçün optimal şəraitin yaradıldığı məmnunluqla vurğulanıb. Yeri gəlmişkən, ölkə başçısının İsrail Dövlətinin müdafiə naziri Yoav Qallant ilə görüşü də son dövrdə baş verən hadisələrin gərgin dinamikası fonunda əlamətdar görünür. Təsadüfi deyil ki, görüşdə iki dövlət arasında münasibətlərin dostluq və tərəfdaşlıq xarakteri daşıdığı, müxtəlif sahələrdə, o cümlədən müdafiə və hərbi-texniki sahədə əməkdaşlığın inkişaf etdiyi vurğulanıb, Azərbaycanın İsraildə səfirliyinin tezliklə fəaliyyətə başlamasının əlaqələrimizin inkişafına daha böyük töhfə verəcəyi bildirilib.

Rusiya Federasiyasının bəzi milli respublikalarını çıxmaq şərti ilə, Azərbaycan rəhbərinin hansısa ölkənin ayrıca götürülmüş bir regionu ilə yüksək səviyyədə görüş keçirməsi əlamətdar deyildir. Bu baxımdan Prezident cənab İlham Əliyevin İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüşü də maraq doğurur. Nəzərə alsaq ki, Azərbaycan türkləri ilə eyni soykökə malik İraq türkmanlarının böyük bir hissəsi məhz bu regionun ərazisində yaşayır, bu baxımdan görüşdə Bərzani tərəfindən İraqın Kürdüstan Regionu ilə Azərbaycan arasında ortaq tarixi və mədəni əlaqələrin olduğunun, eləcə də bu regionun Türkiyə ilə də çox sıx münasibətlərinin və bu kontekstdə birgə əməkdaşlıq layihələrinə baxıla biləcəyinin vurğulanması təsadüfi deyildir. Dövlət başçımızın da məhz Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin mövcudluğu çərçivəsində üçtərəfli əməkdaşlıq mexanizmlərinin perspektivdə nəzərdən keçirilə biləcəyini qeyd etməsi də bu regionla Azərbaycan dövləti arasında əlaqələrin qurulmasına qanunauyğun yanaşmadır. Bu əlaqələrin iqtisadiyyat, ticarət sahələri üzrə inkişaf etdirilməsinin böyük potensialı olduğundan biznes dairələri arasında birbaşa əlaqələrin qurulması da gözləniləndir. Prezident cənab İlham Əliyevin Neçirvan Bərzanini Azərbaycana səfərə dəvət etməsi və dəvətin məmnunluqla qarşılanması görüşün perspektivdə real nəticələrinin olacağından xəbər verir.

Heç şübhəsiz ki, bütün ölkə ictimaiyyətinin böyük maraqla gözlədiyi hadisə ABŞ dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə Azərbaycanın Prezidenti cənab İlham Əliyevlə Ermənistanın hökumət başçısı arasında keçirilən görüş idi. Dövlət başçımızın görüşdən sonra jurnalistlərə verdiyi müsahibədə səsləndirdiyi fikirlərdən iki ölkənin rəhbərləri arasında danışıqların konstruktiv məcrada keçdiyi aydın oldu. Bu da bildirildi ki, Ermənistanla Azərbaycan arasında həllini gözləyən bir çox məsələlər, o cümlədən sülh sazişinin imzalanması üçün lazım olan şərtlər də müzakirə müstəvisində olub. Ermənistanın mövqeyində müşahidə olunan tərəqqinin qaneedici olmadığını bildirən dövlətimizin başçısı görüşdə prinsipial olaraq milli maraq və mənafelərdən çıxış edərək növbəti dəfə Qarabağ haqqında hər hansı iddianın qəbuledilməzliyi barədə mövqeyini ortaya qoyub. Görüşün əsas yekunlarını tezislər şəklində aşağıdakı kimi sıralamaq olar:

*- Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması üçün lazım olan şərtlər müzakirə edilib;*

*- Sülh müqaviləsinin beynəlxalq norma və prinsiplərə əsaslanması vurğulanıb;*

*- Sülh müqaviləsində Qarabağ haqqında hər hansı iddianın olmasının qəbuledilməzliyi barədə Azərbaycanın əsaslı mövqeyi diqqətə çatdırılıb;*

*- Sərhədlərin tarixi xəritələr əsasında delimitasiya olunması prinsipi irəli sürülüb;*

*- Regionda vəziyyətə aşağıdakı iki istiqamətli yanaşmanın zəruri olması təsbit edilib: Azərbaycanla Ermənistan arasında sülh danışıqları istiqaməti və Azərbaycanın Qarabağdakı erməni əhalisi ilə əlaqələri;*

*- 2020-ci ildə baş vermiş Vətən müharibəsinin nəticələri beynəlxalq ictimaiyyət və Ermənistan cəmiyyəti tərəfindən qəbul olunub.*

Ən nəhayət, konfrans çərçivəsində əvvəlcədən də ölkəmiz üçün diqqət mərkəzində olan daha bir tədbir Münxen Təhlükəsizlik Konfransının sədri Kristof Heusgenin moderatorluğu, Azərbaycan Prezidenti cənab İlham Əliyev, Gürcüstan baş naziri İrakli Qaribaşvili, Ermənistan baş naziri Nikol Paşinyan və ATƏT-in Baş katibi, Münxen Təhlükəsizlik Konfransı Şurasının sədr müavini xanım Helqa Maria Şmidin iştirakı ilə keçirilən plenar iclas idi. Bu, SSRİ dağılandan sonra Cənubi Qafqazın üç ölkəsinin rəhbərlərinin, plenar iclas formasında olsa da, ilk üçtərəfli görüşü idi. "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda baş tutan bu panel növbəti dəfə erməni baş nazirin qorxaq və qətiyyətsiz sima, arqument kasadlığı və siyasi savadsızlığı ilə beynəlxalq auditoriya qarşısında acizliyi fonunda Azərbaycan Prezidenti cənab İlham Əliyevin verilən suallara savadlı, inamlı, qətiyyətli, arqumentləşdirilmiş, səlis və lakonik cavabları ilə yadda qaldı. Geniş auditoriya kimin Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsində daha səmimi şəkildə maraqlı olduğunu gördü. Təsadüfi deyil ki, Azərbaycan dövləti həm Avropa İttifaqının (Brüssel formatı), həm artıq tarixə qovuşmuş Minsk qrupunun keçmiş üzvləri Rusiyanın və ABŞ-ın, həm də hər iki dövlətlə mehriban qonşuluq münasibətlərinə malik olan Gürcüstanın vasitəçiliyi aparılan danışıqlara müsbət yanaşma nümayiş etdirir. Yalnız qəti iradəmiz ondan ibarətdir ki, Fransa açıq-aşkar qərəzli və subyektiv şəkildə ermənipərəst mövqe tutduğu və bununla da bütün digər platformalarda danışıqları qəsdən pozmaqda maraqlı olduğu üçün bundan sonra danışıqlar masasında vasitəçi qismində təmsil edilə bilməz.

*Prezident cənab İlham Əliyevin konfrans çərçivəsində keçirilən paneldəki iştirakı ilə bağlı bir faktı da qeyd etmək yerinə düşər. Biz, təxminən, eyni mənzərənin, yəni dövlət başçımızın liderlik xüsusiyyətlərinin və ədalətli mövqeyinin yüksək səviyyədə ifadə etməsinin 2020-ci ildə keçirilmiş 56-cı Münxen Təhlükəsizlik Konfransındakı debat zamanı da şahidi olmuşduq. O zaman ölkəmiz hələ Vətən müharibəsinə başlayıb onu zəfərlə bitirməmişdi. Başqa sözlə, hələ faktiki olaraq məğlub durumda idik. Builki paneldə isə qalib ölkənin Müzəffər Ali Baş Komandanı iştirak edirdi. Qürurverici idir ki, dövlət başçımız hər iki debatda eyni qətiyyət, məğrurluq və əminliklə diplomatiya tariximizə zəfər dolu anlar yazdı.*

*Beləliklə, 2023-cü il fevralın 17-19-da keçirilən 59-cu Münxen Təhlükəsizlik Konfransı Azərbaycan üçün müsbət çalarlarla, ölkəmizin dünyada artan nüfuzunun, beynəlxalq icmadakı layiqli yeri və rolunun bir daha təsdiqi ilə yaddaqalan oldu.*

**Elman CƏFƏRLİ**
***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, dosent***

## Amerikan Riyaziyyat Olimpiadasının qalibləri mükafatlandırılıb



*Fevralın 21-də Amerikan Riyaziyyat Olimpiadasının qalibi olan məktəblilərə medal və sertifikatlar təqdim olunub.*

Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseydə keçirilən tədbirdə olimpiada və müsabiqələrin qalibləri ilə yanaşı, şagirdlərin valideynləri də iştirak ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, əldə olunan uğurlu nəticə ölkəmizdə təhsilə göstərilən dövlət qayğısının, yaradılan müasir tədris şəraitinin bəhrəsidir. Qeyd edilib ki, təhsildə aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, artıq muxtar respublikada şagirdlər hərtərəfli biliyə yiyələnməklə yanaşı, buraxılış və qəbul imtahanlarında da yüksək nəticələr göstərirlər.

Bildirilib ki, şagirdlərin istedadlarını üzə çıxarmaq, fənlərə olan marağı artırmaq məqsədilə bir sıra müsabiqə, fənn olimpiadaları keçirilib, bu bilik yarışlarında, ümumilikdə, muxtar respublika üzrə 1942 şagird iştirak edib, 172 şagird qalib olub.

Diqqətə çatdırılıb ki, Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Hafiz Bəylərli də SASMO beynəlxalq riyaziyyat olimpiadasında 3-cü yerə, SIMOC beynəlxalq riyaziyyat olimpiadasında fəxri fərmana, SINGA beynəlxalq riyaziyyat olimpiadasında 3-cü yerə layiq görülüb. 2022-ci ilin dekabr ayında Azərbaycanı Sinqapurda təmsil edib və keçirilən Yeniyetmələrin Beynəlxalq Riyaziyyat Olimpiadasında 3-cü yerin qalibi olub.

Təhsil naziri müsabiqə və olimpiadalarda uğur qazanan şagirdləri təbrik edib, onlara təhsillərində uğurlar arzulayıb.

Təhsil Nazirliyi Aparatının sektor müdiri Məmməd Bayramov olimpiadanın əhəmiyyəti və təşkilati işlər barədə məlumat verib.

Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Hafiz Bəylərli və Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Turabəxanım Şamilli şagirdlər üçün yaradılan müasir tədris şəraitinə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə medal və sertifikatlar şagirdlərə təqdim olunub.

Qeyd edək ki, II-XI siniflər üzrə keçirilən Amerikan Riyaziyyat Olimpiadasında şagirdlərdən 18-i I, 25-i II, 59-u III yerin, VII-XI siniflər üzrə keçirilən Amerikan Riyaziyyat Müsabiqəsində isə şagirdlərdən 3-ü I, 2-si II, 7-i isə III yerin qalibi olub.

Tədbirdə 2022-ci ildə Sinqapurda keçirilən "STEAM AHEAD" Riyaziyyat Olimpiadasında birinci medala layiq görülən Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Hafiz Bəylərliyə də medal və sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## 21 fevral – Beynəlxalq Turizm Bələdçiləri Günü ilə əlaqədar tədbir olub

*Dünən Naxçıvan Muxtar Respublikası Turizm Departamentində 21 fevral – Beynəlxalq Turizm Bələdçiləri Günü ilə əlaqədar tədbir keçirilmişdir.*



Tədbiri giriş sözü ilə açan departamentin direktoru Əkbər Novruzov bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev turizmin inkişafını ölkə iqtisadiyyatının vacib sahələrindən biri kimi daim diqqət mərkəzində saxlayır. Son illər ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanıdılması istiqamətində, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlər Naxçıvan Muxtar Respublikasında bu sahənin dinamik inkişafına səbəb olmuşdur. Çıxışda muxtar respublikamızın geniş turizm potensialının düzgün təbliğində və turistlərə çatdırılmasında bələdçilərin üzərinə düşən mühüm vəzifələrdən bəhs edilmişdir.

Qeyd olunmuşdur ki, bələdçilərin peşə bacarıqlarının artırılması, inkişafı məqsədilə 29 iyun 2021-ci il tarixdə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin təşkilatçılığı ilə "Naxçıvan Muxtar Respublikasında mövcud olan turizm marşrutları üzrə bələdçilərin texniki peşə biliklərinin təkmilləşdirilməsi" adlı təlim təşkil olunmuşdur. Sonda təlimi uğurla başa vuran iştirakçılara şəhadətnamə və dinləyici sertifikatları təqdim edilmişdir. Bundan başqa, ötən dövr ərzində turizm könüllüləri üçün "Peşəkar bələdçi" təliminin I, II və III modulları keçirilmişdir. Həmçinin "Turizm könüllüsü" layihəsi çərçivəsində könüllülərin muxtar respublikada keçirilən festivallarda, buraya təşkil olunan infoturlarda və digər mədəni-kütləvi tədbirlərdə bələdçi qismində iştirak etmələrinə şərait yaradılmışdır.

Direktor çıxışının sonunda turizm bələdçilərini, eyni zamanda bütün turizm sektoru nümayəndələrini 21 fevral – Beynəlxalq Turizm Bələdçiləri Günü münasibətilə təbrik etmiş, gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Statistika və sertifikatlaşdırma sektorunun müdiri Süleyman Rüstəmov çıxış etmiş, Dünya Turizm Bələdçiləri Assosiasiyası Federasiyasının və Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının üzvü Natiq Paşayev "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində bələdçilik fəaliyyəti ilə bağlı praktiki məşğələ keçmişdir.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Turizm Departamenti***

## Taktiki-xüsusi təlim keçirilib



*Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə "Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda taktiki-xüsusi təlim keçirilib.*

Şiddətli soyuqlarda döyüş əməliyyatlarını və xilasetmə tədbirlərini yüksək peşəkarlıqla aparmaq, komandir heyətinin bölmələrin idarə edilməsi üzrə bilik və bacarıqlarını təkmilləşdirmək məqsədilə təlimə cəlb edilmiş bölmələrlə məşqlər keçirilib.

Məşqlər zamanı bölmələrin qış şərtlərində ərazidə məskunlaşma qabiliyyətləri və təchizatları yoxlanılıb. Qarlı-çovğunlu havalar və çətin keçilə bilən ərazilər üçün nəzərdə tutulmuş təchizat, müxtəlif dağ ləvazimatları və ərzaqla təmin edilmiş hərbi qulluqçular təlim rayonunda hazırladıqları sığınacaqlarda yaşayıb gecələyiblər.

Təlim zamanı keçirilən praktiki məşğələlərdə yüksək dağlıq ərazilərdə donvurma zamanı görülən təxirəsalınmaz tədbirlər, kəskin relyefli ərazilərdə sərt iqlim şəraitində ilk tibbi yardımın göstərilməsi və yaralıların döyüş meydanından təhlükəsiz şəkildə təxliyə edilməsi qaydaları şəxsi heyətə çatdırılıb.

Şəxsi heyətin şiddətli soyuqlarda döyüş tapşırıqlarını yerinə yetirmə bacarıqlarının yoxlanıldığı taktiki-xüsusi təlimdə xüsusi təyinatlı qruplar gündüz və gecə şəraitində şərti düşmən arxasında taktiki fəaliyyətləri icra ediblər. Verilən tapşırığa əsasən qruplarla şərti düşmənin yerləşdiyi əraziyə basqın fəaliyyəti yerinə yetirilib.

Basqın fəaliyyəti zamanı yaralanan hərbi qulluqçuya çevik şəkildə tibbi yardım göstərildikdən sonra çətin keçiləbilən ərazilər üçün nəzərdə tutulmuş hərbi daşıma vasitələrinin köməyi ilə yaralının təxliyyəsi həyata keçirilib.

Qarlı-şaxtalı şəraitdə şəxsi heyətin xizək sürmə vərdişlərinin, hərəkətli və hərəkətsiz vəziyyətdə atəşaçma bacarıqlarının təkmilləşdirildiyi təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

**Kənan CƏLİLOV**

*AMEA Naxçıvan Bölməsində 21 fevral – Beynəlxalq Ana Dili Günü münasibətilə "Dilimiz milli sərvətimizdir" mövzusunda elmi konfrans keçirilib.*

## Beynəlxalq Ana Dili Günü qeyd edilib

Konfransı AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik əvvəlcə Beynəlxalq Ana Dili Gününün təsis edilməsi, bu günün tarixi barədə məlumat verib. Vurğulanıb ki, 21 fevral 1952-ci ildə Banqladeşdə öz ana dilinin rəsmi dil kimi tanınması uğrunda mübarizə aparan 4 nəfər tələbə öldürülmüş, bu qanlı hadisədən 47 il sonra Banqladeş səfirinin təşəbbüsü ilə həmin gün UNESCO tərəfindən Beynəlxalq Ana Dili Günü elan edilmişdir.

Çıxışı zamanı ana dilindən istifadənin vacibliyini qeyd edən İsmayıl Hacıyev deyib ki, dilimizin hərtərəfli inkişafı onun qorunması istiqamətində aparılan uğurlu dövlət siyasətinin nəticəsidir. "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında", "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və başqa mühüm fərman və sərəncamların imzalanması, "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ana dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Vurğulanıb ki, ana dilimizi dərindən mənimsəmək və onu qorumaq bu dildə danışan hər bir azərbaycanlının borcudur.

Daha sonra bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Ali Baş Komandanın zəfər üslubu", Dilçilik şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nuray Əliyeva "Cənubi Azərbaycanda ana dili məsələləri", Dilçilik şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayıl "Heydər Əliyev və dil məsələləri" mövzularında məruzə ediblər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasında 21 fevral – Beynəlxalq Ana Dili Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət nazirinin müavini Həsən Kərimov tarixin sərt sınaqlarından üzüağ çıxan Azərbaycan dilinin inkişafının, rəsmi dövlət dili elan olunmasının, beynəlxalq münasibətlər sisteminə yol tapmasının məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Vurğulanıb ki, ölkəmiz öz tarixi müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili xalqımızın ictimai-siyasi həyatında dövlətin rəsmi dili kimi müstəsna rol oynayıb. 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk milli Konstitusiyamızda Azərbaycan dili dövlət dili olaraq qəbul edilib. Qeyd olunub ki, doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşan ölkə başçısı cənab İlham Əliyev tərəfindən dövlət dil siyasəti uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev "Ən böyük milli dəyərimiz – ana dilimiz" mövzusunda çıxışında vurğulayıb ki, xalqımızın böyük ədəbi şəxsiyyətləri, şair və yazıçıları ana dilimizin saflığı uğrunda mübarizə aparıb, bu dildə gözəl sənət nümunələri yaratmaqla yaşamasına, unudulmamasına şərait yaradıblar.

Müasir dövrün aktual çağırışları və ana dilimizin saflığının qorunması prioritetlərindən danışan AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov Azərbaycan dilinin keçdiyi tarixi inkişaf mərhələləri haqqında məlumat verib.

Tədbirin sonunda kitab sərgisinə baxış keçirilib.

***

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda videoçarx nümayiş olunub. Universitetin rektoru, dosent Elbrus İsayev çıxış edərək 21 fevral – Beynəlxalq Ana Dili Gününün tarixindən söz açıb, bu əlamətdar günün dünyada geniş qeyd olunduğunu bildirib. Diqqətə çatdırılıb ki, bu gün Naxçıvanda dövlət dilimizin qorunub yaşadılmasına xüsusi diqqət yetirilir.

Filologiya üzrə fəlsəfə doktorları, dosentlər Xanəli Kərimli və Arifə Zeynalova çıxışlarında bildiriblər ki, əsası Ümummilli Lider tərəfindən qoyulmuş ana dilinin təbliğinə və tədqiqinə yüksək dövlət qayğısı bu gün də öz bəhrələrini verməkdədir.

Sonda tələbələrin bədii qiraəti olub.

***

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən konfransda ilk olaraq Ümummilli Lider Heydər Əliyevin ana dilimiz haqqında fikirlərini əks etdirən sənədli filmə baxış olub. İnstitutun rektoru Azad Novruzov çıxış edərək Ulu Öndərin ana dilimizə, xalqımızın milli sərvəti kimi göstərdiyi diqqətdən, onun zənginləşməsi və inkişafı istiqamətində gördüyü işlərdən danışıb.

İnstitutun Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Fəxriyyə Cəfərova "Ana dilli hər bir xalqın milli kimliyidir", kafedranın baş müəllimi Təranə Qəbulova "Ana dilimiz bizim söz xəzinəmizdir" mövzularında çıxış ediblər.

Sonda tələbələr ana dilimiz haqqında şeirlər qiraət ediblər.

**Xəbərlər şöbəsi**

## Duzdağ Radio-Televiziya Ötürücü Stansiyasının yeni binasında işlər başa çatmaq üzrədir

*Muxtar respublikanın teleradio yayımı sahəsində mühüm layihələr həyata keçirilir, nəticədə, yayım keyfiyyəti daha da yüksəldilir. Duzdağ Radio-Televiziya Ötürücü Stansiyasının yeni binasının qurulması da bu sahədə görülən tədbirlərdən biridir.*

Naxçıvan Muxtar Respublikası "Radio-Televiziya Ötürücü Mərkəzi" publik hüquqi şəxsin böyük mühəndisi Elşən Fətullayev "Şərq qapısı" qəzetinə verdiyi müsahibəsində bildirdi ki, Duzdağ Radio-Televiziya Ötürücü Stansiyası üçün müasir dövrün tələblərinə uyğun ikimərtəbəli texniki binanın (anbar, dizel və transformator yarımstansiyası) tikinti-quraşdırma işləri yekunlaşmaq üzrədir. Artıq sovet dövründən qalan birmərtəbəli texniki bina və digər yardımçı binaların söküntü işləri başa çatıb. 2020-ci ilin avqust ayında tikintisinə başlanılan ikimərtəbəli yeni texniki binanın birinci mərtəbəsində mətbəx, anbar, texniki otaqlar və mühafizə otağı mövcuddur. İkinci mərtəbədə isə televiziya və radiovericilərin otağı, UPS, requlyator otaqları, mobil operatorların texniki otaqları, eləcə də digər transmissiya və optik şəbəkə vasitələrinin otaqları yerləşir.



Köhnə texniki bina 1960-cı illərin sonunda istismara verilib. Qeyd olunan köhnə binadan Ötürücü Mərkəzə aid radio-televiziya qurğuları və optik transmissiya avadanlıqlarının, eləcə də digər texniki vasitələrin, DVB-T standartlı TV avadanlıqlarının və FM diapazonunda yayımlanan radio proqram verilişlərin yayım avadanlıqlarının köçürülməsi prosesi RTÖM tərəfindən həyata keçirilir. Demontaj işləri zamanı televiziya verici, peyk ötürücü və qəbul antenləri, siqnal transport şəbəkələri, anten fider sistemləri, kodlama və mulitpleksləşmə avadanlıqları, digər texniki vasitələrin köçürülməsi Radio-Televiziya Ötürücü Mərkəzi tərəfindən radio-televiziya yayım vasitələrinin texniki istismar qaydalarına uyğun yerinə yetirilir.

Elşən Fətullayev onu da bildirdi ki, "Azərconnect", "Azercell", "Naxtel" Məhdud Məsuliyyətli cəmiyyətləri kimi mobil GSM operatorların, Rabitə və Yeni Texnologiyalar Nazirliyinə məxsus telekommunikasiya avadanlıqlarının yuxarıda qeyd olunan binadan demontaj olunaraq yeni texniki binaya daşınması, quraşdırılması və yenidən tənzimlənməsi işləri aparılır. Köçürmə ilə əlaqədar radio-televiziya yayımında, eləcə də mobil operatorlarda fasilələr yarana bilər. Yeniləmələr bitdikdən sonra yerüstü və rəqəmsal yayım bərpa olunacaqdır.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Ey “qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir... Bu ola gərək hər bir qələm sahibinin amalı” söyləyərək hər vəchlə xalqın nadan övladlarını xurafat girdabından çıxarmağa, savadsızlıq məngənəsindən xilas etməyə can atan, onları təhsilə, bilik öyrənməyə səsləyən, qılıncdan da kəsərli qələmi, mütərəqqi amalları ilə gənclərin sabahına çıraq tutan, həqiqətdən ilhamlanan, demokratik ruhlu, qüdrət dolu söz təşnəsi, novator fikirli, ideya çinarımız Mirzə Cəlil! “Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən – həyatın məqsədi məhz budur” ifadəsi öz əməlində təcəlla edən ədəbiyyat dühası, mübarək olsun qocalmayan, həmişəcavan ömrünün 154-cü ilinin tamamı.*



## Qüdrət dolu söz təşnəsi, mütərəqqi düşüncə, ideya çinarı...

Mənalı həyat yolun, pedaqoji fəaliyyətin, yaradıcılıq dünyan, satirik, bədii-publisistik nümunələrin, felyetonların elmi məxəzdir ədəbiyyatşünas alimlərə, ədəbi tənqidçilərə, sözün dəyərini, qüdrətini dolğun halda ifadə edən “Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olub gedir, amma söz qalır” fikirlərin stimuldur neçə-neçə yazarlara, şairlərə, jurnalistlərə, qələm əhlinə. Həyata keçən müqəddəs ideyalarından, reallaşan pak arzularından danışmaq, bir əsr öncə heç bir qüvvədən qorxmadan, çəkinmədən xalqın maariflənməsi yolunda ardıcıl olaraq 25 illik fədakarlıq göstərən “Molla Nəsrəddin” jurnalında da üzə çıxardığın, tənqid atəşində yandırdığın dövrün bəzi eybəcərliklərinin artıq aradan qaldırıldığını oxuculara bildirmək, ozamankı cəmiyyətə xas bəzi naqisliklərin günümüzlə də səsləşdiyini bir daha dilə gətirmək istəyi ilə üz tuturam əziz xatirənə, dəyərli irsinə, ey böyük demokrat yazıçımız...

Eşidib-bilməmiş deyilsən ki, milli ideologiya bayraqdarı sayılan “Molla Nəsrəddin”də “Niyə mən dərsdən qaçdım”, “Gimnaziyada təzə məscid”, “Təzə təlim kitabı”, “Müəllimlər”, “Mikroblar”, “Əlifba”, “Şura”, “Gözəl yerlər”, “Ölümaxtaran”, “Uşaqlarımız”, “Məktəblər”, “Şəhərlərdə və kəndlərdə hökumət məktəblərinin müsəlman müəllimlərinə xitab”, “Maarif işləri” kimi felyetonlarında ciddi tənqid atəşinə tuş gələn elm, təhsil, maarif, mədəniyyət sahələrində yol verilən nöqsanlar, çatışmazlıqlar çoxdan arxada qalıb. Dünyaya göz açdığın Naxçıvanının, eləcə də bütöv Azərbaycanımızın timsalında təhsil, elm ən yüksək tərəqqi dövrünü yaşayır bu gün. Ən müasir tədris avadanlıqlarının quraşdırıldığı, təlim metodlarının tətbiq olunduğu orta, ali məktəblərdə minlərlə dünyagörüşlü, istedadlı, bacarıqlı uşaqlar, gənclər gələcəyin ixtisaslı kadrları kimi yetişir. “Təzə təlim kitabı” felyetonunda diqqətləri yönəltdiyin: “Məlum şeydir ki, məktəblərdə təzə üsulla dərs vermək üçün kitablar azdır. Bu səbəbdən millət, Vətən adına bir qulluq eləmək niyyəti ilə yoldaşlarım Mozalan, Hop-hop, Lağlağı və Hərdəmxəyalla himmət edib və köməkləşib bir hesab kitabı cəm etmək fikrinə düşdük” aktual məsələ də müstəqilliyimizin bərpasından sonra öz həllini tapıb ən yüksək səviyyədə. Bir sözlə, daha nə bir uşaq təhsildən kənar qalıb, nə də şagird kitabsız, dəftərsizdir indi. Dövrün bisavadlığını, nadanlığını qələmin misilsiz gücü ilə, ustalıqla üzə çıxardığın, azərbaycanlıların elmdən, təhsildən uzaq düşmələrini göstərən “Poçt qutusu” hekayəsinin qəhrəmanı, “Necə ki salmadım! Elə kağızı qutuya salan kimi, kafir gəlib qutunu bilmirəm nə təhər açdı, kağızı götürdü apardı”, – deyərək öz avamlığını, geriliyini ifşa edən Novruzəlilər öz yerini veribdir hərtərəfli dünyagörüşünə sahib intellektual təfəkkürlü, innovativ düşüncəli startapçı gənclərə...

“Ax, unudulmuş Vətən, ax yazıq Vətən! Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina etməyə üz qoydular. Bəs sən haradasan, ay biçarə vətən?”, “Vətən, Vətən, Vətən! Dil, dil, dil! Millət, millət, millət! Daxi bu dairələrdən kənar bəni-nöi bəşər üçün özgə nicat yolu yoxdur” söyləyərək yad düşüncələrin əsirinə çevrilən insanlara vətənpərvərlik hissləri, Vətənə məhəbbət, yurda, el-obaya sevgi duyğuları aşılamaq olan ən ümdə istəklərin, arzuların çin çıxıb, gerçəkləşibdi artıq. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan siyasi iradəsi, oğullar şücaəti ilə göstərdi, bəyan eylədi bütün dünyaya əsl Vətən sevgisini, vətənpərvərlik duyğularını, Ümummilli Liderimiz Heydər Əliyevin yoluna sədaqət sayəsində bütöv, qüdrətli Azərbaycanın varlığında, ölkə rəhbərinin qayğısı ilə blokada şəraitində inkişaf salnaməsi yazan Naxçıvanımızın timsalında, xalq olaraq birliyimizdə, bərabərliyimizdə yaşayır, güclənir bir vaxt yoxluğundan nigaran qaldığın, pərişanlıq çəkdiyin həmin ali hisslər.

Haqlı olaraq “Bu millət öz dilinə, öz kökünə niyə belə baxır? Bu milli dəyərlər tək mənə, sənə, ona mənsub deyil axı bütün bir xalqa məxsusdur. Ata-babalarımız onları bizə əmanət veriblər. Əmanətə beləmi baxarlar?”, “Dilsiz xalq olunmayan millətin” dilinə o milli “intelligentlər” niyə nankorluqla yanaşırlar?” xitablarını ürəkyanğısı ilə dilə gətirir, “Dil” adlı felyetonda ərəb qrafikası ilə yazılmış məktubda bir hərf yanlışlığının necə böyük kobud səhvə yol açdığını, necə faciə yaratdığını göstərir: “Mən indiyə kimi inciyirdim o müsəlmanlardan ki öz dillərini bilə-bilə bir-birinə rus dilində məktub yazırlar. Amma indi incimərəm. Darülfünunu qurtarmış cavanlarımızın hamısı rus dilində yazı-pozu eləyirlər – müsəlmanca savadı olanlar da eləyir, olmayanlar da eləyir. Əvvəllər, mən buna razı olmazdım, amma indi raziyam. Hətta qəzetə müdirlərimizdən bizə indiyədək bir neçə kağız gəlib. Bunların hamısı rusca yazılıb. Müəllim rəfiqlərimiz də rusca kağız yazırlar. Az qalıb mollalarımız da rus dilində irsal-mərsul edələr, amma eləmirlər, məhz ondan ötür ki, rusca bilmirlər. Bu işlərə əvvəllər mən də təəccüb edirdim, amma indi eləmirəm. Səbəbi var...”, “Anamın kitabı”nda, “Dəli yığıncağı”nda qınayırdın ana dilimizə biganə münasibəti, tənqid atəşinə tuturdun, ironiya predmetinə çevirirdin millətin içərisindən çıxmış yad düşüncədən ilhamlanan “müasir fikirli” bəzi ədəbazları. Şübhəsiz ki, 70 illik sovet rejiminin belə yaddaşlardan silə, unutdura bilmədiyi ana dilimizin indi qorunması yolunda həyata keçirilən tədbirlərdən, həm dövlət səviyyəsində, həm də cəmiyyət olaraq bu mənəvi varlığımıza həssas münasibətdən, qayğıkeşlikdən şad olur müqəddəs ruhun. Yəqin, sənə də agahdır ki, dünyasını dəyişmiş atasının övladları üçün yazıb qoyduğu vəsiyyətnaməni oxumaqla müxtəlif soyadları daşıyan, xalqdan, öz soykökündən uzaq düşməkdə olan qardaşlarını ana məhəbbətinə sığınmağa, milli kökə bağlanmağa səsləyən Gülbaharın çoxdan çatıb müqəddəs amalına, əfkarına. Daha “Dəli yığıncağı” tragikomediyasındakı kimi o dövrdəki cəmiyyətin ən müxtəlif zümrələrini bədii mühakiməyə çəkən “Dəli kimdir?” fəlsəfi sualı ilə müraciət etməyə lüzum qalmayıb dəyərli ziyalıları ilə mədəni təşəkkül tapan cəmiyyətimizə, xalqın dilində danışa bilməyən Doktor Lalbyuz, Həzrət Əşrəf kimi öz milliliyinə laqeyd yanaşan insanlar da tapılmaz aramızda əsla...

Redaktoru olduğun “Molla Nəsrəddin” jurnalının ayrı-ayrı buraxılışlarında işıq üzü görən “Teatr işləri”, “Teatr konfransı”, “Uşaq teatrı” və digər sərlövhəli yazılardan öyrənirik




həmin dövrdəki teatr ocaqlarının fəaliyyətsizliyini, tamaşa seçiminin düzgün aparılmadığını. “Millətin mədəni-mənəvi tərəqqisi bundan çox asılıdır. Teatr tərbiyə ocağı, artist də tərbiyə edəndir” söyləyərək silkələyib cahillik yuxusundan ayıltmağa çalışdın bir ağızdan bir-birinə qarğış yağdıran, qocalmış Fatmanisə xalaya oxşayan aktyorları, mədəni irsi qorumağa səslədin maarifpərvərləri, teatrşünasları, görkəmli ədib Mirzə Fətəli Axundovun “Müsyö Jordan və Dərviş Məstəli şah” əsərini əldə edərək buraya göndərməklə böyük rol oynadın Naxçıvan teatrının əsasının qoyulmasında. Hədər getmədi xalqın mədəni şüurunun formalaşması yönündəki xeyirxah əməllərin, gördüyün işlər, çəkdiyin zəhmət. Ana yurdundakı teatrların timsalında reallığa çevrilib artıq arzuların, bir vaxtlar görmək istəyində olduğun tamaşalar göstərilir adını daşıyan 150 yaşlı sənət məbədində. Dramlarından, felyeton və hekayələrindən hazırlanan tamaşalar hələ bundan neçə əsr sonra da teatr ocaqlarımızı bəzəyəcək, həmin səhnə əsərləri ilə onlarla rejissor, aktyor nəsli yetişib, yetişəcək də, dühandan yaranan möhtəşəm yaradıcılıq nümunələrini izləməkdən heç bir zaman usanmayacaq Azərbaycan tamaşaçısı...

Həyat və fəaliyyətinin geniş şəkildə tədqiq edilərək gənc nəslə düzgün formada aşılanmasında, əsərlərindəki dərin fəlsəfi meyarların üzə çıxarılaraq ədəbi ictimaiyyətə təqdim edilməsində AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin danılmazdır, böyükdür rolu, çoxşaxəlidir dəyərli elm ziyalısının bu yöndəki xidmətləri. Görkəmli alimin mirzəcəlilşünaslıq istiqamətində apardığı geniş araşdırmaları özünəməxsus cəhətləri ilə silinməz iz buraxıb, müasir dövrün ədəbi mühitində, əsərlərinin səhnələşdirilməsi zamanı verdiyi dəyərli tövsiyələr səbəb olub tamaşaların daha böyük rəğbət qazanıb sevilməsinə. Akademik Naxçıvan Dövlət Universitetində Tələbə Teatr Studiyasını yaratmaqla əsaslı töhfələr verib gənc aktyorlar nəslinin yetişməsinə, onların püxtələşərək böyük səhnələrə yol tapmalarına, alim dönmədən mübarizə apararaq bir an belə izin, imkan verməyib haqqına kölgə salsın səni dinsizlikdə günahlandırmağa çalışanlar...

Ey kiçik hekayənin böyük ustadı, ədəbi məktəb yaradıcısı, tənqidi realizmin banisi Mirzə Cəlil! ***“Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir”***, – deyən Ümummilli Liderimiz Heydər Əliyev ən ali qiyməti verib xalqın xoşbəxt sabahları naminə qələmi maarif qılıncına çevirməklə keçən 62 illik ömrünə, əsrlərə sığmayan, nəsillərə örnək sayılan yaradıcı ümmanına. Ulu Öndərin mədəniyyət siyasətinə sadiqlik nəticəsində ən yüksək səviyyədə keçirilir yubileylərin, əsərlərin bir sıra xarici dillərə tərcümə olunaraq bəzəyir dünya kitabxanalarını, elmi mərkəzləri; pyeslərindən, hekayələrindən hazırlanan tamaşaları izləmək üçün insanlar can atır teatra, tez-tez görüşünə gəlir oxucuların, adınla bağlı muzeylərdə sərgilənən eksponatlardan boylanmağa çalışırıq həyatına, yaradıcılıq yoluna, hikmətli nümunələrindən istiqamət götürməyə, əxz etməyə çalışırıq peşə, sənət sahələrində, görəcəyimiz işlərdə, atacağımız addımlarda. Xalqın, millətin taleyi ilə bağlı çox arzuların reallaşsa da, felyetonlarında, məqalələrində, əsərlərində vardır hələ günümüzlə səsləşən məqamlar, araşdırılası, öyrənilesi, nəticə çıxarılası mətləblər. Dünənimiz, bu günümüz, sabahımız, qocalmayan, həmişəcavan qüdrətli qələm ustadımız, satirik publisistikanın, karikatura sənətinin əsasını qoyan kəsərli söz sahibi, nəsihətamiz müdrik ağsaqqalımız Cəlil Məmmədquluzadə, bütün dəyərli ithaflarınçün əziz xatirənə sonsuz hörmət və ehtiram hissi ilə...

✍ **Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 13 mart 2023-cü il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manatla) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|
| 1. | 1216 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 5 otaqlı, 116.0 kvadratmetri yaşayış, 19.25 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayon Qıvraq qəsəbəsi | 38 000.0 | 1900.0 |
| 2. | Ümumi sahəsi 256.6 kvadratmetr, yaşayış sahəsi 221.8 kvadratmetr, köməkçi sahəsi 34.8 kvadratmetr olan fərdi yaşayış evi | Kəngərli rayon Qarabağlar kəndi | 28 000.0 | 1400.0 |
| 3. | 600 kvadratmetr torpaq sahəsində yerləşən, 1 mərtəbəli, 2 otaqlı, 42.00 kvadratmetri yaşayış, 40.80 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri Qaraçuq kəndi | 27 000.0 | 1350.0 |
| 4. | 370 kvadratmetr torpaq sahəsində yerləşən 1 nömrəli, binanın 2-ci giriş 1-ci mərtəbəsində 48.16 kvadratmetri ümumi, 48.16 kvadratmetri əsas sahədən ibarət qeyri-yaşayış sahəsi (mağaza) | Kəngərli rayon Qıvraq qəsəbəsi | 20 000.0 | 1000.0 |
| 5. | 3200 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 72.50 kvadratmetri yaşayış, 82.45 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayon Qarabağlar kəndi | 19 000.0 | 950.0 |
| 6. | 2373 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 50.31 kvadratmetri yaşayış, 211.61 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayon Qarabağlar kəndi | 17 000.0 | 850.0 |
| 7. | 0.2306 hektar torpaq sahəsində yerləşən 2 mərtəbəli, 5 otaqlı, 111.06 kvadratmetri yaşayış, 85.58 kvadratmetri qeyri-yaşayış, 89.35 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayon Xok kəndi | 31 000.0 | 1550.0 |
| 8. | 0.0601 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 42.00 kvadratmetri yaşayış, 44.00 kvadratmetri köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayon Xok kəndi | 10 600.0 | 530.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 faizi məbləğində beh İcra Məmurlarının Xüsusi Vəsaitlər Hesabına 10 mart 2023-cü il tarixədək ödənilməlidir. Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*-müvafiq formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 13 mart 2023-cü il tarixdə saat 11[00]-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38.***

### *İtmişdir*

Əhmədov Nurlan Vəliqulu oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayon Xok kənd sakini Cəfərov Yəmən Allahqulu oğlunun adına olan JN-547[A] inventar nömrəli, 10800038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Zeynalov Emin Məhəbbət oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: info@serqqapisi.gov.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Gülcamal Tahirova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 139**